# Qəbələnin aqrar sektoru inkişafdadır

## Payızlıq taxıl əkini başa çatdı

***Bu ilin payız aylarında havalar əlverişsiz keçsə də, əkinçilər payızlıq dənli bitkilərin əkinini başa çatdırmışlar. Fermerlər və torpaq mülkiyyətçiləri gələn ilin məhsulu üçün 20.300 hektar sahədə taxıl əkmişlər. Bunun 14.300 hektarını buğda, qalanını isə arpa əkini təşkil edir.***



Taxıl əkininin optimal müddətdə başa çatdırılmasında ayrı-ayrı qəsəbə və kəndlərin əmək adamları və fermer təsərrüfatları xüsusilə fərqlənmişlər. Taxıl əkini kampaniyasında Nic, Vəndam qəsəbələrinin, Bayramkoxalı, Kürd, Tüntül, Əmirvan, Məlikli, Yeni Dizaxlı, Çuxur Qəbələ və Hacıalılı kəndlərinin, «Gilan» MMC və «Həsrət» fermer təsərrüfatlarının taxılçıları irəlidə getmişlər. Rayonda toxumçuluqla məşğul olan özəl toxumçuluq təsərrüfatlarının da payız əkininin vaxtında başa çatdırılmasında rolu böyük olmuşdur. Onlar istehsal etdikləri yerli və ən məhsuldar toxum sortlarını əkinçilərə sərfəli qiymətlə satmışlar.

Texnika əkinçinin sağ əlidir deyiblər. Payızlıq taxıl əkini müddətində «Aqrolizinq» Qəbələ Filialının mexanizatorları daha çox fəallıq göstərmişlər. Mexanizatorlar səpində iştirak edəcək texnikanı vaxtında sazlamış, şum çıxarılmasında, səpinin fasiləsiz aparılmasında taxılçıları darda qoymamışlar.

Hazırda fermerlər payızlıq dənli bitkilərin əkinini başa çatdırmaqla arxayınlaşmırlar. İndi onların əsas vəzifəsi toxum səpilmiş taxıl sahələrinə aqrotexniki qaydada xidmət göstərməkdən ibarətdir. Əkin sahələrinin məhsuldarlığını artırmaq üçün ziyanverici həşəratlara qarşı mübarizə tədbirləri də yaddan çıxmır.

Hazırda rayon bitki mühafizə mərkəzinin mütəxəssisləri vaxtaşırı əkin sahələrində olur, müşahidələr aparır, bitkilərin xəstəlik və ziyanvericilərdən qorunması üçün aqrotexniki--mexaniki, bioloji, kimyəvi tədbirlərin aparılmasını diqqət mərkəzində saxlayırlar. Son məlumata görə gəmiricilərə qarşı 800 hektara yaxın əkin sahələrində aqrotexniki, bioloji və kimyəvi mübarizə üsüllarından geniş istifadə edilmişdir. Sahələrdə ziyanvericilərə qarşı mübarizə tədbirləri davam etdirilir. Taxılçılar gələn il hər hektardan orta hesabla 30-35 sentner məhsul istehsl etmək uğrunda mübarizə aparırlar.

✍ **Ramil QƏRİBOV.**

## Qəbələ fındıq emalı zavodunun məhsulları Avropa ölkələrinə ixrac edilir




***Fındıqçılıq Qəbələnin iqtisadiyyatında aparıcı yerlərdən birini tutmaqla yanaşı, rayon əhalisinin əsas məşğuliyyət sahələrindən biridir. Kəndlilər yetişdirdikləri məhsulun bir hissəsini rayonda fəaliyyət göstərən Qəbələ fındıq emalı zavoduna təhvil verirlər. Müəssisəyə Qəbələ ilə yanaşı Oğuz, Zaqatala və Qax rayonlarından da fındıq gətirilir.***

Hazır məhsullar əsasən Almaniya, İtaliya, İspaniya və digər Avropa ölkələrinə ixrac olunur. 2005-ci ildən fəaliyyət göstərən müəssisədə fındıq ləpəsindən püre, şokolad kremi, duzlu və şəkərli fındıq ləpəsi, üzərinə şokolad çəkilmiş fındıq ləpəsi və digər məhsulların hazırlanması da nəzərdə tutulur. Bu məhsullar da MDB və Avropa ölkələrinə ixrac ediləcək.

Rayonda fındıqçılığın inkişafına uyğun olaraq zavodun gücü daha da artırılacaq. Hazırda Qəbələdə 1000 hektar sahədə yeni fındıq bağının salınması üçün qızğın iş gedir. Yaxın illərdə rayonda əlavə olaraq 2 min hektar sahədə yeni fındıq bağlarının salınması üçün dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlar müəyyənləşdirilib.

Qeyd edək ki, Qəbələ rayonunda 3827 hektar fındıq bağı var. Bunun da 3480 hektarı bar verəndir. Bu il bağlardan 8 min 200 tondan artıq məhsul götürülüb.

**«Qəbələ».**

## Dayaq məntəqələrinin fəaliyyəti genişlənir

***Rayonumuzda tumlu meyvələrin yeni sortlarının yetişdirilməsi ilə məşğul olan Quba Elmi Tədqiqat Bağçılıq və Çayçılıq İnstitutunun Qəbələ Dayaq Məntəqəsi fəaliyyət göstərir. Adından bəllidir ki, dayaq məntəqəsi təkcə Qəbələ üçün yox, qonşu rayornların təsərrüfatları üçün də təcrübə məktəbidir.***

43 il əvvəl fəaliyyətə başlayan məntəqənin ərazisi 50 hektardır. Burada tumlu yeni meyvə sortları yetişdirilir. Məntəqənin direktoru Sənan Hacıyevin dediyinə görə 4 hektar sahədə yeni salınmış kolleksiya alma, 4 hektar isə armud bağları var. Alma 25 sortdan, armud isə 16 sortdan ibarətdir. Dövlət başçısı cənab İlham Əliyevin tapşırığına əsasən baramaçılığı inkişaf etdirmək məqsədilə ipək qurdlarının yem bazasını gücləndirmək məqsədilə 0,30 hektar sahədə 5 minə yaxın tut (çəkil) tingi əkilmişdir. Bundan əlavə məntəqə 6 min fındıq, 300 alma və 80 ədəd alça tingi yetişdirir. Bu il 3 hektarda fındıq bağı salınmış və bağın 6 hektara çatdırılması nəzərdə tutulmuşdur. Cari ilin payız mövsümündə 8 hektar meyvə bağlarında budama işi apaprılıb. Bu istiqamətdə iş davam etdirilir.

Öyrəndik ki, məntəqənin 3 nəfər daimi işçisi var. Lakin mövsümi işlərdə bağlarda xidmət göstərmək üçün xeyli sayda əlavə işçi cəlb olunur. Dayaq məntəqəsinin elmi işçiləri uzun zaman kolxoz təsərrüfatına rəhbərlik edən təcrübəli və işgüzar aqronom Nüsrət Əhmədov və aqrotexnik Əzizağa Aslanovdur.

Söhbət əsnasında Nüsrət Əhmədov bildirdi ki, dayaq məntəqəsinin kənd təsərrüatı üçün əhəmiyyəti böyükdür. Belə ki, bu məntəqə xarici və yerli tumlu meyvə sortlarını yığmaqla məntəqənin ərazisində kolleksiya toplayıb onların keyfiyyətini öyrənir və ən keyfiyyətli sortlar Şəki və Zaqatala bölgəsinə aparılaraq çoxaldılır. Xüsusilə Lətifə, Abbasbəyli, Əntiqə, Nar armud sortlarının və Qızıl Əhmədi, Azərbaycan, Nəsimi, Babək, Stak Spar alma sortlarının yetişdirilməsinə fikir verilir. Həmin sortların təsərrüfatlarda artırılması təmin edilir.

Dayaq məntəqəsinin üstün cəhəti ondan ibarətdir ki, meyvəçiliyin inkişafında yeni məhsullar bağların salınması üçün bağbanlara tövsiyələrini verir.

✍ **Aslan CƏLİLOV.**

## Çindən ölkəmizə 1,5 milyon ədəd tut tingi gətirilib

Baramaçılığın inkişaf etdirilməsi üçün rayonlarda yeni intensiv tipli tut (çəkil) bağlarının salınması məqsədilə ölkəmizə Çin Xalq Respublikasından 1,5 milyon ədəd ting gətirilib.

Tut tinglərindən ibarət yüklər Heydər Əliyev Beynəlxalq Aeroportundan Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hazıranmış bölgü əsasında ayrılmış nəqliyyat vasitələri ilə operativ surətdə Lənkəran, Tovuz, Şəki, Bərdə və Ucar rayonlarına yola salınıb. Sonra həmin tinglər bölgəyə uyğun olaraq bu rayonlardan ətraf 37 rayona paylanılmışdır.

Məlumata görə yeni çəkil bağlarının salınmasında və əkilmiş tinglərə aqrotexniki qulluq işlərinin həyata keçirilməsində yerli bağbanlara metodik kömək göstərilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri tərəfindən müvafiq videotövsiyələr, bukletlər, yaddaş vərəqələri və digər maarifləndirici materiallır hazırlanıb və müvafiq sahə üzrə Çin mütəxəssisləri respublikaya dəvət edilib.

**«Qəbələ».**

## Yeni fındıq bağları salınır



Tikanlı kəndinin sakinləri fındıq bağlarının genişləndirilməsinə ciddi əhəmiyyət verirlər. Kənd inzibati ərazi nümayəndəsi Azər Rəfiyevin verdiyi



məlumata görə kənd əməkçiləri bu ilin payız mövsümündə 6 hektar sahəyə 600 ədəd yeni fındıq tingi əkmişlər. Onlar daha 4 hektar sahədə fındıq tingi əkməyi nəzərdə tutmuşlar. Fındıq tinglərinin əkinində Akif Yusifov, Əjdər Qocayev, Ələfsər Cəlilov, Siyasət Rəfiyev və Rasim Rəşidov xüsusi fəallıq göstərmişlər.

Onu da öyrəndik ki, kəndin məktəbyanı sahəsində bu il 200 ədəd tut tingi əkilib. Kənddə həmçinin mövcud fındıq bağlarında budama işləri aparılır, bağlar ətrafı çəpərlər bərpa edilir.

**«Qəbələ».**